DÖVLƏT VERGİ XİDMƏTİ

# İdxal ediləcək mallar barədə vergi orqanına əvvəlcədən məlumat təqdim edilməlidir

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən**

Neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən vergi ödəyiciləri istisna olmaqla, digər vergi ödəyiciləri tərəfindən idxal ediləcək mallar barədə İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən formada aşağıdakı məlumatlar malların idxal olunacağı tarixədək qeydiyyatda olduğu vergi orqanına verilməlidir:

- mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə;
- mallar digər şəxslərə məxsus yerlərdə məsuliyyətli mühafizəyə və ya saxlanca verildiyi halda tərəflər arasında bağlanmış müqavilə və malların saxlanma yeri barədə;

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

❖ mallar sifariş əsasında gətirildiyi halda sifariş verən şəxslər barədə (sifarişçi vergi ödəyicisi olduqda VÖEN-i, fiziki şəxs olduqda adı, soyadı, atasının adı və FİN-i) və hər bir sifarişçi üzrə sifarişin məbləği barədə.

Vergi orqanının qeyd olunan məlumatları təqdim edən vergi ödəyicisinin mallarının saxlanıldığı (boşaldıldığı) yerə həmin mallar idxal edildiyi vaxtdan **3 iş günü** müddətində baxış keçirmək hüququ vardır.

İdxal edilmiş mallar barədə yuxarıda qeyd olunan məlumatları təqdim etməyən və ya təhrif olunmuş formada təqdim edən vergi ödəyicisinə müvafiq olaraq idxal edilmiş malların hesab-faktura (invoys) dəyərinin və ya onun təhrif olunmaqla təqdim edilmiş hissəsinin mikro sahibkarlıq subyektlərinə münasibətdə **2 faizi** miqdarında, digər şəxslərə münasibətdə **5 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

**Nə dəyişdi?**

İdxal olunan malların sifarişçiləri, habelə idxal olunan malların saxlanması yerləri barədə əvvəlcədən vergi orqanlarına məlumatın verilməsi vergi ödəyicisinin vəzifəsi hesab olunduğundan bu vəzifələrin icra edilməməsinə görə müvafiq məsuliyyət tədbirləri görüləcəkdir.

Qeyd olunan dəyişiklik nəticəsində uçot intizamı yüksəldilməklə idxal əməliyyatları üzrə yayınma hallarının azaldılması təmin ediləcək və nəticədə bu sahədə vergi nəzarəti daha da güclənməklə kölgə iqtisadiyyatının həcmi azalacaqdır.

BAKI — 2022